## “Gömrük brokerlərinin dövlət reyestrinin aparılması Qaydaları”nın təsdiq edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli Fərmanının 1.1.9-cu yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Gömrük brokerlərinin dövlət reyestrinin aparılması Qaydaları” təsdiq edilsin (əlavə olunur).

**Azərbaycan Respublikasının Baş naziri**
**Artur Rasi-zadə**

**Bakı şəhəri, 12 oktyabr 2012-ci il**
**№ 230**

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2012-ci il 12 oktyabr tarixli
230 nömrəli qərarı ilə
təsdiq edilmişdir

## Gömrük brokerlərinin dövlət reyestrinin aparılması

## QAYDALARI

### 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Respublikası Gömrük Məcəlləsinin (bundan sonra - Gömrük Məcəlləsi) 22.5-ci maddəsinə uyğun olaraq hazırlanmışdır və gömrük brokerlərinin dövlət reyestrinin aparılması qaydalarını müəyyən edir.

1.2. Gömrük brokerlərinin dövlət reyestrinin aparılması Gömrük Məcəlləsinin 22-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi (bundan sonra - Komitə) tərəfindən həyata keçirilir.

1.3. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq gömrük brokeri fəaliyyəti üçün lisenziya almış hüquqi şəxslər gömrük brokerlərinin dövlət reyestrinə daxil edilirlər.

1.4. Gömrük brokerlərinin dövlət reyestrinin aparılması kağız üzərində yazılı və elektron formada həyata keçirilir.

1.5. Komitə gömrük brokerlərinin dövlət reyestrinə daxil edilmiş gömrük brokerlərinin adları haqqında məlumatları öz mətbu orqanında nəşr edir, rəsmi internet saytında yerləşdirir və eyni zamanda, dövlət reyestrində olan dəyişikliklər barədə yeniləşdirilmiş məlumatların üç ayda bir dəfədən az olmayaraq, Komitənin rəsmi internet saytında yerləşdirilməsini təmin edir.

### 2. Gömrük brokerlərinin dövlət reyestrinə daxil edilən məlumatlar

Gömrük brokerlərinin dövlət reyestrinə daxil edilən məlumatlar bu Qaydaların əlavəsində göstərilən formada tərtib edilir.

### 3. Gömrük brokerlərinin dövlət reyestrində dəyişikliklərin edilməsi

Gömrük brokerinin lisenziyası yenidən rəsmiləşdirildikdə, dövlət reyestrində müvafiq dəyişikliklər edilir.

### 4. Gömrük brokerlərinin dövlət reyestrindən çıxarılması

4.1. Gömrük brokerinə verilmiş lisenziyanın müddəti bitdikdə, lisenziyanın fəaliyyəti dayandırıldıqda və ya lisenziya ləğv edildikdə gömrük brokeri dövlət reyestrindən çıxarılır.

4.2. Lisenziyası bərpa olunmuş gömrük brokeri yenidən gömrük brokerlərinin dövlət reyestrinə daxil edilir.

***Qeyd.*** *Bu Qaydalarda dəyişikliklər Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırıldıqdan sonra edilə bilər.*[1]

"Gömrük brokerlərinin dövlət reyestrinin
aparılması Qaydaları"na
**əlavə**

## Gömrük brokerlərinin dövlət qeydiyyatına alınmasına dair reyestrin forması

| Sıra №-si | Təşkilatın adı və hüquqi ünvanı | Əlaqə vasitələri (telefon, faks nömrələri və elektron poçt ünvanı ) | Azərbaycan Respublikasının Vergilər Nazirliyində hüquqi şəxs kimi qeydiyyata alınması barədə təsdiqedici sənədin nömrəsi və tarixi | Gömrük brokerinin dövlət reyestrinə daxil edilməsi tarixi | Gömrük brokerinin dövlət reyestrindən çıxarılması tarixi | Gömrük brokerinin dövlət reyestrindən çıxarılmasının səbəbləri | Təşkilatın gömrük brokeri fəaliyyətini həyata keçirən ayrı-ayrı struktur bölmələrinin siyahısı və ünvanı | Hüquqpozma haqqında məlumat | Gömrük brokerinin gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssisləri barədə məlumat |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | |

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 01 may 2015-ci il tarixli **157** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 5, maddə 643**)

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 01 may 2015-ci il tarixli **157** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 5, maddə 643**) ilə “Gömrük brokerlərinin dövlət reyestrinin aparılması Qaydaları”nın sonuna yeni məzmunda “Qeyd” əlavə edilmişdir.